ATİB-in 2-ci il dönümünə həsr olunmuş tədbir

17 Aprel 2006-cı il Bakı

Hörmətli Qonaqlar,
Bugün ATİB- in 2004-cü ildə adının ilk dəfə tələffüz edildiği günden etibarən bir göz qırpımında keçən iki ilə yekun vururuq. Geçən günlər, bir çoxu ilk və tarixi olan hadisələri də özüylə gətirərək, arxada övladlarımıza, nəvələrimizə danışacağımız xatirələr qoydu.
Bu iki illik müddətdə, əksəriyyətimiz öz işlərimizdən daha çox ATİB-ə vaxt ayırdıq. **Yaxşı biz bunu nə üçün etdik? Bu sualın cavabı çox sadədədir.** Kökü yüz illər əvvələ gedib çıxan ancaq əsri zamanların kopartdığı,ölkələrimiz arasındakı **bağlarımızı və münasibətlərimizi yeniden bərpa etmek üçün**! Hal-hazırda mövcud realllıq və ehtiyaclarımız çərçivəsində, **ölkələrimizin iqtisadi, sosial və mədəni sahələrdə integrasiyasını daha çox təmin etmək üçün.**

Bu sahədə müvəffəqiyyətli olduqmu? Buna verəcəyim cavab qısa və konkret olacaq. **Bəli !!!** Biz, qarşımıza qoyduğumuz məqsəqlərimizə çatmaq üçün çıxdığımız bu yolda, başqalarının bizdən gözləmədiyi qədər müvəffəqiyyətli olduq. Ancaq bu müvəffəqiyyət, bizim üçün təsadüfi bir uğur olmadı. Çünkü **biz,** bu uğuru əldə edəcəyimizdən əmindik; və bunda yanılmadıq. *Bu əminliyimizin mənbəyi, siz qiymətli üzvlərimizin hər işimizə maddi və mənəvi dayaq olması ilə əməkdaşlıq etdiyimiz qurum və təşkilatların Azərbaycanın iqtisdi inkişafına təkan vermək məsələsəində bizimlə yekdil və ən az bizim qədər qətiyyərli* olmasıdır.
Sizlərlə, müxtəlif vasitələrlə bir çox dəfə bölüşdüyüm üçün burada, bugünə qədər nələr etdiyimizi, nələrə imza atdığımızı təkrar anlatmayacağam. Ancaq sizinlə sevinərək bölüşmək istədiyim bir görüşüm oldu.

Bundan on gün əvvəl, Ankarada T.C. Başbakanı Sn.Recep Tayyib Erdoğanı ziyarət etdim. Cənab Baş Nazir; ATİB Sədrini qəbul edəcəyi toplantıda Dövlət Nazirləri Ali Babacan, Kürşad Tüzmen ve Sanayi Naziri Ali Coşkun ile Parlamentolararası Dostluk Grubu Sədri Haluk İpek' in də iştirak etməsi göstərişini vermişti. ATİB-dən, proqramından və regional əməkdaşlıq layihələrindən bəhsetdiyimiz və Türkiyə ilə Azərbaycan arasındakı əməkdaşlığın hər sahədə inkişaf etdirilməsi üçün atılması gərəkən addımları danışdığımız bu toplantıda həm Dövlət Naziri Cənab Tüzmen həm də Parlamentolararası Dostluq Grubu Sədri Cənab.İpek, Baş Nazirə bunları dedilər: **'ATİB; bugüne qədər regionda qurulmuş Birliklərdən fərqli olaraq; regional və ölkələr arasındakı əlaqələrə dəstək verən çox əhəmiyyətli işlərə imza atmaqdadır'.**

<u>Sizlərə gürur hisləriylə nəqletdiyim bu cümlə; keçən iki il içərisində ATİB olaraq əldə etdiğyimiz uğurların ən səlahiyyətli ağızlardan teyidi və tasdiqi olmuşdur.</u>
Azərbaycan - Türkiyə İş Adamları Birliyi" İctimai Birliyi (ATİB) fəaliyyətə başladığı 17 Aprel 2004-cü il tarixindən etibarən qarşısına qoyduğu əsas məqsədə nail olmaq çərçivəsində Azərbaycanın iqtisadi inkişafına töhfə vermiş və Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə əlaqələrin dərinləşdirilməsi istiqamətində bir sıra ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirmişdir.

ATIB-in qurulmasından bugünə qədər Azərbaycan ilə Türkiyə arasında qarşılıqlı əlaqələrin inkişafına bir sıra şəxs və təşkilatlar öz töhfəsini vermişdir. Təşkilatımızın məqsədlərini əks etdirən bir sıra layihələr və tədbirlər həyata keçirmiş, habelə bu layihələr və tədbirlərin həyata keçirilməsi zamanı mühüm rol oynamış şəxslərin hər 2 ölkənin inteqrasiyasında böyük rol oynadıqlarını nəzərə alıb geniş ictimaiyyətə tanıtdırmaq və əldə edilmiş uğurlari simvollaşdırmaq məqsədilə **İLİN DÖVLƏT ADAMI, İLİN QHT-si, İLİN ELM və SƏNƏT ADAMI, İLİN İŞ ADAMI** kimi nominasiyalara təqdim olunması və 2005-ci ildən etibarən yuxarıdakı nominasiyalarda mükafatların verilməsi qərara bağlanmışdır.

Kimi quruluş məqsədlərinə uyğunmühüm ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirmiş, Azərbaycan ilə Türkiyə arasında qarşılıqlı əlaqələrin inkişafına özünəməxsus töhfəsini vermişdir.
Eyni zamanda ötən müddət ərzində bir sıra şəxs və təşkilatların həyata keçirdikləri ATİB-in, məqsədləri ilə üst üstə düşmüşdür. Bu isə ölkələr arası inteqrasiyaya töhfə verən şəxs və qurumların, həyata keçirdikləri bu mühüm işləri ictimaiyyətə tanıtdırmağın zərurətini ortaya qoymuş və 2005-ci ildən etibarən ənənəvi olaraq Qızıl Çarx nominasiyasılarının verilməsinə qərar verilmiştir.

Keçən ilin İyun ayında Türkiyə Respublikasının Baş Naziri cənab Recep Tayyib Erdoğanın Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Şimali Kipr Türk Respublikasının (ŞKTR) siyasi və iqtisadi blokadadan çıxardılması istiqamətində səsləndirilmiş tövsiyyə və məsləhətlər 2 ölkənin tarixində qızıl hərflər ilə yazılacaq növbəti səhifə açdı. Tarix bir daha təkrar olundu: qardaş qardaşa, dost dosta dayaq durdu.
Bu çərçivədə, Azərbaycan və Türkiyə arasında münasibətlərin dahada yaxşılaşdırılmasında böyük rol oynayan ŞKTR-yə həyata keçirilmiş tarixi səfəri 2005-ci ilin hadisəsi olaraq seçilmişdir.

Əziz dostlar,
Bu nöqtədə sevinərək ifadə etmək istəyirəm ki ATİB; regional inkişaf içərisində əhəmiyyətli rol oynayacaq bir istiqamətdə irəliyə doğru addımlamaqdadır. Azərbaycan və Türkiyənin regiondakı rollarını da möhkəmlədiriləcəyi bu istiqamətdə, çox vacib tərəfdaşlar ilə əməkdaşlıq edilməkdədir. Nəticələrini Allah izin versə yaxın gələcəkdə birlikdə görəcəyik.
Vaxtınızı daha çox almadan, bu önemli gündə, başda gecənin sponsorluğunu öz üstünə götürən Azercell şirkətinə hüzurunuzda öz minnətdarlığımı bildirmək istəyirəm.

Bildiyiniz kimi Azercellin Baş Direktoru və ATİB İdarə Heyətinin Sədr Müavini Sərdar Canoğulları Kazakistana təyin olunmuş, onun yerinə isə Halim Atəş bu vəzifəyə gətirilmişdir. ATİB İdarə Heyətinin Sədri olaraq dəstəyini bizdən heç vaxt əsirgəməyən Sərdar Canoğullarına yeni vəzifəsində uğurlar diləyirəm. Azercellin Baş Direktoru vəzifəsinə təyin edilən Halim Ateşə də müvəffəqiyyətli olacağına inandığım yeni vəzifəsində uğurlar diləyir, ATİB İdarə Heyətində aktiv olaraq bizlərə dəstək verəcəyinə olan inancımı təkrar etmək istəyirəm. ATİB`-in 2005-ci ildəki fəaliyyətlərində dəstəyi ilə bizim yanımızda olan bütün dostlarımıza,sizlərə və ailələrinizə sonsuz təşəkkür edir, bu axşam gözəl vaxt keçirməyinizi diləyirəm.

Dikkatinize göre sağolun.